# Akademik Kamal Abdullanın 75 illik yubileyi münasibətilə kitab sərgisi

**Xalq yazıçısı, akademik Kamal Abdullanın 75 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında görkəmli alim və yazıçının elmi və ədəbi yaradıcılığını əks etdirən kitab sərgisi təşkil edilib.**



Sərgidə Kamal Abdullanın uzunmüddətli elmi fəaliyyətini, dilçilik sahəsində apardığı tədqiqatları və ədəbiyyatşünaslığa verdiyi mühüm töhfələri əks etdirən nəşrlər nümayiş olunur. Burada müəllifin ”Seçilmiş əsərləri”nin yeddi cildliyi, ”Sirri-zəmanə”, ”Mifdən yazıya və yaxud gizli Dədə Qorqud”, ”Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)”, ”Azərbaycançılıq və “Kitabi-Dədə Qorqud” dastanı”, ”Həqiqətin onomastikası” və digər elmi-ədəbi kitabları yer alıb.

Həmçinin multikulturalizm və azərbaycançılıq ideyalarına həsr olunmuş ”Heydər Əliyev və multikultural təhlükəsizlik”, ”Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları”, ”Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları”, ”Azərbaycan multikulturalizmi” və digər kitablar da oxucuların diqqətinə təqdim edilir.

Nəşrlərdə Azərbaycanın mədəni müxtəlifliyinin qədim dövrlərdən müasir zamanadək keçdiyi inkişaf yolu, azərbaycançılıq və azərbaycanşünaslıq anlayışlarının elmi-nəzəri əsasları, azərbaycançılığın məfkurə, siyasi hərəkat və mənəvi dəyər kimi rolu geniş şəkildə işıqlandırılır. Bununla yanaşı, 1993-2003-cü illərdə dünyada, xüsusilə Amerika, Avstraliya, Kanada və digər ölkələrin ingilisdilli mətbuatında Azərbaycan haqqında dərc olunmuş məqalələrin tərcümələri də sözügedən kitablarda əks olunub.